# Azərbaycan, dünyam mənim

Azərbaycan, dünyam mənim

**Ana və Vətən**

Ana Allahdan sonra insana can, qan verən, ana insanı torpağa bağlayan varlıq; torpağı vətənləşdirən, bu vətənə, torpağa adını önə çəkərək (Ana Vətən...), müqəddəsləşdirərək sevdirən əvəzolunmaz bir varlıq, bir qüvvə!

Ana and ünvanı, ana ən müqəddəs ziyarətgah adı. Üstündə addım atdığımız bu torpağın hər qarışı yaşam ünvanı, həyat məkanı. Torpaq elə bir qiymətli və müqəddəs nemət ki, başqasına pay verilməz... Ana məfhumu kimi! Həmişə bəd nəzərlərdən, pis düşüncələrdən qorunar, babadan oğula - nəsilbənəsil ötürülər, uğrunda ölüm belə olsa da qorunar, saxlanılar. Torpaq qorunduqca vətənləşər. Bəzən özlüyümdə düşünürəm ki, elə Vətən sözü Ana məfhumunun yarısıdır - və tən - yəni Ana və anaya tən! Ona görə bu qədər müqəddəsləşib ta əzəldən. Ana və Vətən; həmçinin gözəl bir məfhum halı alıb - Ana Torpaq, Ana Vətən! Məhz buna görə də ana övladları bu məfhumları qorumaqla hər bir çətinliyə sinə gərərək igid və qəhrəman adlarını qazanmışlar. Vətən daşı olmaq istəyənlər vətənpərvər və ana laylalarının paklığı və şirinliyi ilə bu vətənpərvərlərin iç dünyasına hopduqca mənəviyyatı zənginlər kimi yetişmişlər. Bu isə milləti, xalqını sevən hər kəsə aid olmalı, çünki hər kəs vətəndaş, yəni vətənin övladı kimi formalaşmalıdır. Əsl vətəndaşlar isə Vətəni könlünün məhbubu, sevgisi sananlardır.

Doğma ocağının istiliyinə isinənlər, bu ocağın alovunda halal zəhmətlə qazanılan ata çörəyini ana ürəyinin hərarəti ilə bişirilən sonra yeyənlər, bacıları baş tacı, qardaşları qranit qaya sananlar Vətənin dar gününün müdafiəçisi, qayalarında mamır olub bitənlərdir.

Məhz oxuculara tanış etmək istəydiyim vətən oğlu da əsil vətəndaş adına layiq biridir.

**Azərbaycan qayəsi nur,**
**mayası nur ki...**
**Hər daşından**
**alov dilli ox ola bilər!**

Azərbaycanlı olmaq onun ən böyük adi, titulu. Elə bu ada da layiq bir insan kimi ömür sürmək həyat amacı. Tarixi qəhrəmanlığımızla həmişə fəxr edər və edir o! Həmişə qəlbini ağrıdan isə I Qarabağ müharibəsinin yekunları olmuşdu. 4 il davam edən müharibə, eloğlularının çətin vəziyyətdə qəhrəmanlıqla vuruşması, şəhidlər verməsi, sağlamlıqlarını itirməsi, sonda isə torpaqlarımızın 20 faizinin faşist ruhlu ermənilərin işğalında qalması idi. Ta uşaqlıqdan vətənini bütöv görmək, əsir torpaqları azad etmək, narahat şəhid ruhlarının öcünü almaq, buna görə də, özünü döyüşə hazırlamaq, hərbi sahənin sirlərini öyrənmək istəyirdi. Bilirdi ki, Azərbaycanın hər daşı alov dilli ox olaraq, qayəsi nur, mayası nur olan oğullarının - vətəndaşlarının igidliyi və doğru seçilmiş ölkə rəhbərliyinin siyasəti nəticəsində Zəfər çalınacaq!

**Kimdir o?**

Elşən Fərzi oğlu Umarov. Rayonumuzun ziyalıları və qəhrəmanları ilə tanınan Bum qəsəbəsinin adı 44 günlük (2020-ci il) Vətən müharibəsində də öz igidləri ilə bir daha tarixin yaddaşına iz saldı. Məhz belə igidlərin eloğlusu olan Elşən Umarov 1976-cı ilin may ayının 5-də elə bu qəsəbədə ziyalı ailəsində dünyaya göz açmışdır. Uşaqlığının ilk çağlarını burada keçirmiş, qəsəbədəki T. Yaqubov adına orta məktəbin birinci sinfinə getmiş, mərhum müəllim Balabəy Hacıyevin sinfində təhsilə başlamışdır.



Sonralar Bakı şəhərinə köçdüyü üçün orta təhsilini 1993-cü ildə Nəsimi rayonundakı 28 saylı məktəbdə almışdır. Hələ orta məktəbdə oxuyarkən uşaqlıq arzularını həyata keçirmək üçün hərbi sahə ilə maraqlanır, təhsilini bu sahədə davam etdirmək istəyirdi. Elə bu məqsədlə də 1994-cü ildə Bakı Ali Birləşmiş Komandirlər məktəbinə qəbul oldu və həmin məktəbi 1998-ci ildə bitirdi. Burada oxuduğu dövrdə leytenant rütbəsi aldı. Elşən Umarov zabit kimi Qazax, Tovuz rayonlarında, Daşkəsəndə, Murov dağlarında yerləşən "N" saylı hərbi hissələrdə vətənə layiqincə xidmət etmişdir.

Elşən Umarov sərhəd zonalarında baş verən iğtişaşlar və toqquşmalar zamanı da həmişə vətənin və igid eloğlularının taleyini düşünmüş, bir hərbçi kimi öz peşəsinin məsuliyyəti ilə daim ordumuzun möhkəmləndirilməsinə çalışmış, üzərinə düşən vəzifəni layiqincə yerinə yetirmişdir. Vətən, torpaq, xalq onun üçün həmişə dəyərli olmuş, həyatını onların müdafiəsinə həsr etmişdir. 30 illik bir vaxt onun nəzərində 30 əsrə bərabər olmuşdur. I Qarabağ müharibəsinin müəyyən səbəblər üzündən olan məğlubiyyəti həmişə onun qəlb ağrısı, acısı olmuşdur. Məhz buna görə də güclü və məğlubedilməz bir ordunun olması onun əsas arzu və məqsədi idi.

2020-ci ilin iyul hadisələri, igid oğullarımızı itirmək onda da torpaqlarımızı döyüş yolu ilə azad etmək arzusunu gücləndirmişdi. Şəhidlərimizin ruhunun rahat uyuması üçün Elşən hər an döyüşməyə, düşməndən öc almağa hazır idi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2020-ci ilin sentyabrında düşmənin atəşkəsi pozması və müharibə təhlükəsi ilə bağlı xalqa müraciəti onun da ürəyincə oldu. Artıq vətənpərvər oğullar könüllü olaraq hərbi komissarlıqlara müraciət edirdilər. Bu isə bir hərbçi kimi Elşənin qələbə əzmini daha da artırırdı.

2020-ci il sentyabrın 27-də o da bir hərbçi kimi döyüşlərə qatıldı. Elşən Umarov Cəbrayıl, Zəngilan, Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdi. Elşən iki dəfə orta-ağır, bir dəfə isə yüngül yaralanmışdı. Lakin sağalan kimi təkrar döyüş bölgələrinə qayıtmış, sonadək döyüşmüşdür.

Onun döyüş qəhrəmanlığı Ali Baş Komandanımız tərəfindən yüksək qiymətləndirilmişdir. Qələbə anınadək mənfur düşmənə qarşı igidliklə döyüşən Elşən Umarov "Vətən uğrunda", Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur. Elşən Umarov nümunəvi xidmətinə görə mayor, sonra isə polkovnik-leytenant rütbəsinə yüksəlmişdir. Elşən hərbi sahədə çalışdığı bu illər ərzində 13 medala layiq görülmüşdür.

**Ölümün qorxduğu igid...**

Elşən Umarov Cəbrayıl rayonunun Şükürbəyli kəndində gedən döyüşlərdə ağır yaralanır. Döyüş zamanı batalyon komandiri şəhid olur, 5 nəfər yaralanır. Elşənin də bu döyüşdə şəhid olması xəbəri yayılır... Ancaq 6 saatdan sonra yaralı döyüşçümüz Elşən özünə gəlir, gözlərini açır və ilk dediyi də 80 nəfərlik komandanın mühasirədə olması xəbəri olur. O, təcili olaraq həmin xəttə qayıdır, onları mühasirədən çıxarır. Bu isə onun əsil vətənpərvərliyi və insanlığı idi... Elə Qisas müharibəsi olan 44 günlük döyüşlərin sonu məhz belə oğulların şücaəti sayəsində Zəfərlə nəticələndi.

Zəfər tarixini yazan məhz belə oğullardır.

Elşən Umarov həm də qayğıkeş oğul, qayğıkeş atadır. Atası Fərzi Nəsir oğlu, anası Məryəm Osman qızı əsil insanlığa layiq, vicdanının diktəsi ilə hərəkət edən bir övlad böyütmüşlər. Elşənin ailəsində də məhz özü kimi 3 övlad böyüyür.

**Dostlar üçün darıxanda...**

Vicdanlı insanların dostları da seçilir. Öz xarakterinə, davranışına, arzularına və xidmətinə görə. Elşən öz xarakterinə uyğun insanlarla dostdur. Ölümdən qorxmayanlar, cəsurlar onun ən yaxın dostlarıdır. Onun dostları Mübarizlər, Poladlar, İlqarlar, Təbrizlər, Aqşinlər... Ali rütbəli - şəhid adlı oğullar... Onların ruhları həmişə onunla... Çünki Elşən onların qisasını alan oğullardandır! Onlar daim onun qəlbində, göz və söz yaddaşında! Onların məzarları isə qəzilərin, eləcə də Elşənin ziyarətgahı!.. Qazi və döyüşçü dostları isə... Ölümün gözünə dik baxan, sağlamlıqlarını itirən, psixoloji problemlər qazanan silahdaşları... Canlı şəhidlər!

Onlar üçün darıxanda isə... Şəhid dostlarının xatirələrini paylaşar, döyüş anlarını təkrar yaşarlar!

Gözləri nəmlənsə, ürəkləri qəmlənsə də, Zəfər tarixi və qalib ölkə vətəndaşı adı qürurlandırar onu! Zəfər tarixinin fədailəri ilə daim qəlblərində yaşar.

**Bibixanım İSAYEVA.**

# AŞPA-nın hazırkı qərarının insan hüquqları ilə heç bir əlaqəsi yoxdur

Bəzi avropalı parlamentarilər bu gün Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini sual altına alaraq, nümayəndə heyətimizə qarşı ağlasığmaz ittihamlarla çıxış ediblər. Bütün bunlar düşünülmüş, planlaşdırılmış və Azərbaycana qarşı təşkil olunmuş kampaniyanın tərkib hissəsidir. Bunu nəzərə alaraq Azərbaycan nümayəndə heyəti AŞPA-da geniş, ətraflı bəyanat yaydı. Bəyanatda konkret olaraq vurğulamışıq ki, bu dözülməz şəraitdə, Azərbaycana, azərbaycanlılara qarşı əsassız ittihamlar səsləndirmək şəraitində işləmək mümkün deyil.

Dialoq, qarşılıqlı hörmət əsasında işləməsi tələb olunan AŞPA, əslində, bütün bu dəyərlərdən çox uzaqdır. AŞPA-da bəzi avropalı parlamentarilər azərbaycançılığa, türkçülüyə, İslama, əməkdaşlığa, qarşılıqlı hörmətə qarşı çıxaraq, növbədənkənar prezident seçkilərinə




müdaxilə edib ölkəmizdə demokratik şəkildə fəaliyyət göstərən institutlara kölgə salmaq, bununla da Azərbaycana zərbə vurmaq istəyirdilər.

İyirmi il ərzində bu təşkilat Ermənistana qarşı heç bir sanksiya tətbiq etmədiyi, yüz minlərlə qaçqın və köçkün azərbaycanlıya hər hansı mesaj göndərmədiyi, onların problemləri ilə məşğul olmadığı və hətta nümayəndə heyətimizə bu problemlərlə məşğul olmağa qadağa qoyduğu halda, Azərbaycan öz torpaqlarını azad edəndən, ərazi bütövlüyünü və suverenliyini, sərhədlərini tam şəkildə bərpa edəndən sonra buradakı parlamentarilər ölkəmizə qarşı ciddi cəhdlə belə bir kampaniya başlamışdılar. Avropa Şurası, eləcə də digər beynəlxalq təşkilatlar Azərbaycanla şantaj dili ilə danışa bilməz. Heç kim ölkəmizi təhdidlərlə qorxuda bilməz. Azərbaycan ərazi bütövlüyünü bərpa etmiş qalib dövlətdir. Ona görə də belə cəhdlər Avropa Şurası öz Parlament Assambleyasının dəyərlərinə, mövcudluğuna, təsir imkanlarına, Avropada və dünyadakı nüfuzuna ciddi zərbə vurdu. Belə bir təşkilatın daxilində danışıq aparmaq, dialoq qurmaq, mövcud vəziyyəti izah etmək mümkün deyil.

Ona görə də bu gün nümayəndə heyətimizin yekdil qərarı ilə AŞPA-da fəaliyyətimizi dayandırırıq. Hesab edirik ki, bu, ölkəmizlə başqa dillə danışmaq istəyən ölkələrə, dairələrə ciddi siqnaldır. Azərbaycan qalib ölkədir, sözü haqdır. Azərbaycanın sözü eşidiləcək, dinləniləcək və nəzərə alınacaq.

Nümayəndə heyətimiz AŞPA-ya yenidən qayıtmaq məsələsi barədə düşünəcək. Bu təşkilatda mövcud ab-hava dəyişməsə, insanlığa qarşı ritorika gündəlikdən çıxarılmasa, təşkilat ikili standartlara, islamofob, türkofob, azərbaycanofob münasibətlərə son qoymasa, bu, mümkün olmayacaq.

Normal münasibətin şahidi olmasaq, qalib Azərbaycana layiqli münasibət göstərilməsə, nümayəndə heyətimiz öz mövqeyində qalacaq.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ".**